

Sosial xidmətin inkişafına dair Dövlət Proqramı qəbul edildi

2



«Dərman vasitələri haqqında» Qanuna dəyişikliklər edildi

3



Samux Rayon Mərkəzi Xəstəxanasının yeni binasının açılışı olub

2


# TİBB qəzeti

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi

№ 15-16 (775) 31 avqust 2023-cü il | Qəzet 1991-ci ildən nəşr olunur | www.tibbqazeti.az


## Prezident İlham Əliyev Bakıda «Diamed» dərman istehsalı zavodunun açılışını edib




2

## Türk dövlətləri ilə əlaqələr Azərbaycanın xarici siyasətinin prioritetlərindəndir

*Azərbaycan səhiyyə naziri TDT-yə üzv ölkələrin səhiyyə nazirlərinin III iclasında çıxış edib*



7

## ÜST-nin Azərbaycan nümayəndəliyinin heyəti Naxçıvana işgüzar səfər edib



8






## Koronavirusla mübarizədə iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin vaxtı uzadılıb



6

### *Aforizm*

*Nəyi sakit qəbul edə bilirsinizsə, o artıq sizi idarə etmir.*

*Konfutsi*

# Prezident İlham Əliyev Bakıda «Diamed» dərman istehsalı zavodunun açılışını edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Pirallahı rayonunda «Diamed» dərman istehsalı zavodunun açılışında iştirak edib.**

AZƏRTAC-ın bildirdiyinə görə, iqtisadiyyat naziri Mikayıl Cabbarov və «Diamed Development Group» MMC-nin təsisçisi Aytən Quliyeva dövlət başçısına görülən işlər haqqında məlumat veriblər.

Layihənin əhəmiyyəti barədə videoçarx nümayiş olunub.

Prezident İlham Əliyev zavodu işə salıb.

İstehsal prosesi ilə yaxından tanış olan dövlət başçısına məlumat verilib ki, zavodda müxtəlif adlarda, geniş çeşiddə (NaCl 0,9 faiz; Ringer; Ringer laktat; Qlükoza və s.) və müxtəlif həcmlərdə (100 ml, 200 ml, 250 ml, 400 ml, 500 ml) həyati vacib və zəruri venadaxili dərman məhlulları istehsal olunacaq.

Qeyd edilib ki, «Diamed Development Group» MMC-nin Pirallahı rayonunda yaradılan dərman zavodu daxili tələbatın ödənilməsində yerli məhsulların payının artırılması, ixrac imkanlarının genişləndirilməsi məqsədilə açılıb. Müəssisənin illik istehsal gücü 20 milyon litr, ölkəmizin bu dərmanlara illik tələbatı isə təxminən 15 milyon litrdir. Beləliklə, müəssisədə istehsal edilən məhsulların yerli bazarın tələbatını ödəməsi ilə yanaşı, Rusiya, Gürcüstan və Orta Asiya ölkələrinə ixracı da nəzərdə tutulur.

«Diamed» dərman zavodunda 100 iş yeri yaradılıb. Müəssisənin layihəsi İsveçrə şirkəti tərəfindən Qabaqcıl İstehsal Təcrübəsinə (GMP), istehsal xətti isə Avropa Farmakopeyasına uyğun olaraq hazırlanıb. Yüksək texnologiya və tam qapalı sistemlə təchiz edilmiş zavodun istehsal avadanlıqları İtaliya, ABŞ, Almaniya, İsrail kimi ölkələrdən alınıb. İstehsal olunan məhsullar zavoda məxsus müasir laboratoriyada Avropa Farmakopeyasının tələblərinə uyğun mütəmadi olaraq yoxlanılır.





Qeyd edək ki, dövlət başçısının müvafiq Sərəncamı ilə yaradılmış Pirallahı sənaye parkı ölkəmizdə sənayeləşmə siyasətinə uyğun olaraq təşkil olunan 7 sənaye parkından biridir və əczaçılıq məhsullarının istehsalı sahəsində ixtisaslaşır. Bu günədək parkda 6 müəssisə rezident kimi qeydiyyatdan keçib. Onlardan «R-Pharm» MMC və «Diamed Co» MMC artıq fəaliyyətə başlayıb. Rezidentlər tərəfindən 36,6 milyon manatdan çox investisiya yatırılıb, 130-dan çox iş yeri yaradılıb. Növbəti mərhələdə 30 milyon manat investisiyanın qoyulması və daha 250-dən artıq iş yerinin yaradılması nəzərdə tutulur. Bu sənaye parkının rezidentləri tərəfindən indiyədək 37 milyon manatlıq məhsul istehsal olunub.

Məlumat verilib ki, «Diamed» dərman zavodunun tikintisinin maliyyələşdirilməsində Prezident İlham Əliyevin Sərəncamı ilə 2006-cı ildə fəaliyyətə başlayan «Azərbaycan İnvestisiya Şirkəti» Açıq Səhmdar Cəmiyyəti də iştirak edib. Ümumi dəyəri 15,6 milyon manatdan çox olan zavodda «Azərbaycan İnvestisiya Şirkəti»nin payı 20 faizdir.

Bu müəssisəyə dövlət tərəfindən digər dəstək tədbirləri də göstərilib. Belə ki, layihənin reallaşması üçün İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən 6 milyon manat güzəştli kredit verilib. Sahibkarlığın inkişafına digər bir dövlət dəstəyi çərçivəsində İqtisadiyyat Nazirliyi tərəfindən verilmiş investisiya təşviqi sənədi sayəsində müəssisə idxal etdiyi avadanlıqlara görə 1,3 milyon manat güzəşt əldə edib.

# Samux Rayon Mərkəzi Xəstəxanasının yeni binasının açılışı olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Samux rayonuna səfəri çərçivəsində Rayon Mərkəzi Xəstəxanasının yeni binasının açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısına xəstəxanada yaradılan şərait barədə məlumat verilib.

Qeyd olunub ki, Samux Rayon Mərkəzi Xəstəxanasının tikintisinə 2019-cu ildə başlanılıb. İnşaat işləri bu ilin avqustunda başa çatdırılıb. İki hektar sahədə inşa olunan xəstəxana 90 çarpayılıqdır. Tibb müəssisəsinin üçmərtəbəli binasında əhaliyə ən müasir tələblər səviyyəsində səhiyyə xidməti göstərilməsi üçün lazımi şərait yaradılıb. Belə ki, xəstəxana Yaponiya, Koreya Respublikası, İtaliya və Türkiyə istehsalı olan ən müasir avadanlıqla təchiz edilib.

Tibb müəssisəsində cərrahiyyə, terapiya, uşaq xəstəlikləri, nevrologiya, ginekologiya, travmatologiya, LOR, infeksion xəstəliklər, şüa-diaqnostika, reanimasiya, qəbul, laboratoriya, doğuş, hemodializ, təcili tibbi yardım şöbələri fəaliyyət göstərəcək.

Ərazidə əsas korpusla yanaşı, yoluxucu xəstəliklər korpusu və digər yardımçı sahələr üçün binalar inşa olunub.

# Hərbi həkim təltif edildi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının təltif edilməsi haqqında» Sərəncam imzalayıb.**

Sənədə əsasən, Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsinin təmin edilməsində, ölkənin ərazi bütövlüyünün qorunub saxlanılmasında və sərhəd mühafizə orqanları qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin bir sıra hərbi qulluqçuları orden və medallarla təltif ediliblər.

Mükafatlandırılanlar arasında hərbi həkim də var. Belə ki, tibb xidməti leytenantı Ceyhun Ələkbər oğlu Pirimov «İgidliyə görə» medalı ilə təltif olunub.

# Sosial xidmətin inkişafına dair Dövlət Proqramı qəbul edildi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında» Sərəncam verib.**

Sənəddə bildirilir ki, yeni Dövlət Proqramının qəbulu Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının 2022?2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası»nın icrasını təmin etmək məqsədi daşıyır.

Yeni Sərəncama əsasən, Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin əlaqələndirilməsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə olunub.

2026-cı ilin sonunadək hamı üçün bərabər iştirak imkanını təmin edən sosial xidmətlər sisteminin və bu sahədə ixtisaslı kadr potensialının formalaşması, sosial xidmətlərin əhatəsinin genişlənməsi, ünvanlılığının və keyfiyyətli xidmətlərə əlçatanlığın təmin edilməsi və əhalinin göstərilən xidmətlərdən məmnunluq səviyyəsinin artması yeni Dövlət Proqramının əsas hədəf göstəriciləridir.

Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində 2026-cı ilin sonunadək sosial xidmət sistemi ilə bağlı qanunvericilik bazasının təkmilləşəcəyi, həssas əhali qruplarına göstərilən xidmətlərin kəmiyyət və keyfiyyətinin artacağı gözlənilir. Eləcə də müntəzəm həyata keçirilən profilaktik abilitasiya və reabilitasiya tədbirləri stasionar sosial xidmətə ehtiyacı olan şəxslərin sayının azalmasına imkan verəcək.

Həmçinin Proqram üzrə görüləcək tədbirlər xidmət təklifinin artması ilə rəqabət mühitinin güclənməsinə səbəb olacaq. Bu da öz növbəsində sosial xidmətlərin keyfiyyətinə müsbət təsir göstərəcək. Dövlət sifarişi ilə sosial xidmət sahəsində həyata keçirilən layihələrin sayının ildən-ilə artırılması, innovativ texnologiyaların tətbiqi ilə sosial xidmət sahəsində vahid informasiya məkanının yaradılması da nəzərdə tutulur.

Yeni Dövlət Proqramı ilə sosial xidmət sahəsində elektron xidmətlərin təkmilləşməsi və yeni e-xidmətlərin tətbiqi, sosial xidmət infrastrukturunun müasir beynəlxalq təcrübəyə uyğunlaşdırılması, sosial xidmətlərin təşkilində vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın davam etdirilməsi, bu sahədə dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi və s. planlaşdırılır.

*(Davamı 4-cü səhifədə)*

# «Dərman vasitələri haqqında» Qanuna dəyişikliklər edildi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Məclisin qəbul etdiyi «Dərman vasitələri haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Qanunu imzalayıb.**

Yeni sənədə əsasən, Qanunun əvvəlki variantına bir sıra əlavələr və dəyişikliklər edilib.

Belə ki, «Əsas anlayışlar» maddəsində bir sıra anlayışların, o cümlədən «dərman vasitələri ilə davranış», «dərman vasitəsinin dövlət qeydiyyatı», «farmakopeya məqaləsi», «dərman vasitəsinin dövlət qeydiyyatı haqqında qeydiyyat vəsiqəsi», «dərman vasitəsinin dövlət qeydiyyatı haqqında qeydiyyat vəsiqəsinin sahibi» anlayışlarının izahı yeni redaksiyada verilib. Eləcə də bu maddəyə «dərman vasitələrinin dövlət reyestri», «tibb vasitəsi», «dərman vasitələrinin sertifikatı», «dərman vasitələrinin keyfiyyəti», «qablaşdırılmamış dərman vasitələri», «dərman vasitəsinin xarici (beynəlxalq) qeydiyyatının tanınması», «dərman vasitələrinin sadələşdirilmiş ekspertizası», «dərman vasitələrinin təqib və izləmə sistemi», «resept», «icazə verən orqan», «ərizəçi», «dərman vasitələrinin idxalına icazə», «mal partiyası», «tibb müəssisələri üçün qablaşdırılmış dərman vasitələri», «klinik protokol», «Etibarlı İstehsalat Təcrübəsi» anlayışlarının şərhi əlavə edilib.

«Dərman vasitələri haqqında» Qanuna olunan əlavələrdən biri də «Bu Qanunun tətbiq dairəsi» adlı 1-1-ci maddədir. Burada bildirilir ki, bu Qanunun məqsədləri üçün tibb vasitələri və dərman maddələri, sadalanan istisnalar nəzərə alınmaqla, dərman vasitələrinə bərabər tutulur.

Qanunun «Dərman vasitələri ilə davranışın dövlət tənzimlənməsinin üsulları» adlanan 4-cü maddəsində bir sıra dəqiqləşdirmələr aparılıb, həmçinin bəzi bəndlər yeni redaksiyada verilib. Belə ki, 4.2-ci maddəyə əsasən, müvafiq icra hakimiyyəti orqanı dərman vasitələri ilə davranışın tənzimlənməsi məqsədilə onların dövlət qeydiyyatını həyata keçirir; dövlət reyestrini aparır; idxalına icazə verir; Azərbaycan ərazisində istehsal olunan dərman vasitələri (dərman maddələri) üçün farmakopeya məqaləsini təsdiq edir; mövcud dərman vasitələrinin keyfiyyətinə nəzarət məqsədilə Azərbaycanda yaradılmış yeni səmərəli analiz üsullarını ekspertizadan keçirir; dərman vasitələrinin və dərman maddələrinin istehsalına, daşınmasına və saxlanmasına dair texniki normativ hüquqi aktları təsdiq edir; həyati vacib, təcili hallarda istifadə edilən və resept olmadan buraxılan dərman vasitələrinin siyahılarını təsdiq edir; tibb vasitələrinə dair texniki normativ hüquqi aktları və dövlət standartlarını hazırlayır və öz səlahiyyətləri daxilində təsdiq edir; dərman vasitələrinin qəbulundan sonra insan orqanizminin neqativ dəyişikliyinə səbəb olan əlavə təsirlər üzə çıxdıqda, onların istifadədən çıxarılmasını təmin edir; dərman vasitələrinin farmakonəzarətini həyata keçirir; xüsusi nəzarətdə olan dərman vasitələrinin siyahısını tərtib edir; dərman vasitəsinin təsnifatlaşdırılmasını, ekspertizasını, o cümlədən sadələşdirilmiş ekspertizasını həyata keçirir; Azərbaycanda istehsal olunan dərman vasitələrinin siyahısını hazırlayır, ictimaiyyətin məlumatlandırılması məqsədilə rəsmi internet səhifəsində yerləşdirir və bu Qanunun 16.6-cı maddəsində nəzərdə tutulan məlumatlar əsasında həmin siyahını rübdə bir dəfə yeniləyir; klinik protokolları hazırlayır, onların elektron bazasını yaradır və özünün rəsmi internet səhifəsində yerləşdirir; dərman vasitələrinə dair EİT-in tələblərini müəyyən edir.

4.3-1-ci maddə aşağıdakı redaksiyada verilib: «Dərman vasitələrinin keyfiyyətli, effektiv və təhlükəsiz olmamasına dair əsaslandırılmış faktlar aşkar edildikdə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həmin dərman vasitələrinin dövlət reyestrinə daxil edilməsindən imtina edir, dövlət qeydiyyatına alınmış həmin dərman vasitələrinin Azərbaycan Respublikasında tətbiqini qadağan edir və bu Qanunun 6.5-ci maddəsi nəzərə alınmaqla dövlət reyestrinə daxil edilməyən dərman vasitələrinin Azərbaycan Respublikasında istifadəsinin təhlükəliliyi barədə ictimaiyyəti məlumatlandırır».

Qanuna dərmanların qiymətinin tənzimlənməsi ilə bağlı 4.6-1-ci və 4.11-ci, dövlət reyestrinə daxil edilməyən dərman vasitələrinin ölkə ərazisində topdan və pərakəndə satışının qadağan olunması ilə bağlı 4.9-cu, tibb müəssisələri üçün qablaşdırılmış dərman vasitələri haqqında 4.10-cu maddələr əlavə edilib.

Eləcə də dərman maddələrinin dövlət qeydiyyatı haqqında vəsiqənin müddəti, tibb müəssisələri üçün qablaşdırılmış dərman vasitələrinin dövlət qeydiyyatı, dərman vasitələrinin qablaşdırması üzərində yazıların dili, Azərbaycanda istehsal olunan və yalnız ixrac edilməsi nəzərdə tutulan dərman vasitələri ilə bağlı maddələr də Qanunda yer alıb.

«Dərman vasitələri haqqında» Qanuna olunan əsas əlavələrdən biri də «Dərman vasitəsinin xarici (beynəlxalq) qeydiyyatının tanınması» adlanan 6-2-ci maddədir. Burada bildirilir ki, dərman vasitəsinin xarici (beynəlxalq) qeydiyyatının tanınması «Lisenziyalar və icazələr haqqında», «İnzibati icraat haqqında» Azərbaycan Respublikasının qanunlarına və bu Qanuna uyğun olaraq həyata keçirilir, həmçinin bu prosesin qaydaları göstərilir.

Qanuna əlavə olunan 9-1-ci maddə «Dərman vasitələrinin Azərbaycan Respublikasının ərazisinə idxalına icazə verilməsi» adlanır. Bildirilir ki, dərman vasitələrinin idxalına icazənin, onun dublikatının verilməsi, icazənin yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpası və ləğvi «Lisenziyalar və icazələr haqqında», «İnzibati icraat haqqında» Azərbaycan Respublikasının qanunlarına və bu Qanuna uyğun olaraq həyata keçirilir. Bu maddədə icazənin alınması qaydaları və icazənin verilməsindən imtina şərtləri şərh olunur.

Qanuna əlavə edilən 11.3-cü maddədə isə bildirilir ki, dərman vasitəsinin Azərbaycan dilində olan istifadə təlimatı qablaşdırmanın içərisində və ya qablaşdırmanın yanında dərman vasitəsini müşayiət etmədiyi təqdirdə istehlakçının tələbi əsasında aptek təşkilatı tərəfindən kağız formasında çap edilərək ona təqdim olunur. Həmin dərman vasitəsinin qeydiyyat vəsiqəsinin sahibi aptek təşkilatını Azərbaycan dilində olan istifadə təlimatı ilə təmin etməyə borcludur.

Qanuna əlavə olunan daha bir maddə «Dərman vasitələrinə reseptlərin yazılması» adlanan 12-1-ci maddədir:

«12-1.1. Bu Qanunun 12-1.5-ci maddəsində qeyd olunan hal istisna olmaqla, reseptdə dövlət reyestrinə daxil edilməyən dərman vasitəsinin yazılması qadağandır.

12-1.2. Reseptin forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

12-1.3. Təyin edilmiş dərman vasitəsinin beynəlxalq patentləşdirilməmiş adının (təsiredici maddənin adının) olmadığı hallarda (üç və daha artıq tərkibli, bioloji oxşar dərman vasitələri qrupuna aid olduqda) reseptdə latın əlifbasında əmtəə nişanı adı yazılır.

12-1.4. Reseptdə dərman vasitələrinin beynəlxalq patentləşdirilməmiş adı (təsiredici maddənin adı) ingilis dilində, təsiredici maddənin dozası, dərman vasitəsinin farmasevtik forması və dərman vasitəsinin istifadə qaydaları isə Azərbaycan dilində yazılır.

12-1.5. Klinik protokollara əsasən xəstələrin müalicəsi üçün zəruri hesab olunan, lakin beynəlxalq patentləşdirilməmiş adı (təsiredici maddənin adı) ilə dövlət qeydiyyatına alınmayan dərman vasitəsi reseptdə yazıla bilər. Bu halda həmin dərman vasitəsinin tələb olunan miqdarı göstərilməklə resept sistem vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilir.

12-1.6. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) 2 (iki) iş günü müddətində həmin reseptin klinik protokollara və xəstənin elektron sağlamlıq kartındakı məlumatlara uyğunluğunu yoxlayır və nəticəsinə uyğun olaraq resepti elektron sistemdə təsdiq edir və ya təsdiqindən imtina edir.

12-1.7. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən resept təsdiq olunduqdan sonra reseptdə göstərilən dövlət qeydiyyatında olmayan dərman vasitəsi bu Qanunun 9.4-cü və 9.6-cı maddələrinə uyğun olaraq ölkəyə gətirilə bilər.

12-1.8. Reseptdə düzəlişin edilməsinə zərurət yarandıqda, həmin resept elektron sistemdə nüsxəsi saxlanılmaqla ləğv edilir və yeni resept yazılır.

12-1.9. Aptek təşkilatı istehlakçının müraciəti əsasında təkrarlanmayan nömrə vasitəsilə sistemdə reseptə baxa bilər.

12-1.10. İstehlakçının tələbi əsasında resept yazmaq hüququna malik tibb işçiləri (həkim və tibb məntəqələrinin feldşerləri) və ya aptek təşkilatı tərəfindən elektron sənəd formasında olan resept kağız daşıyıcıda ona təqdim olunmalıdır.

12-1.11. Resept xəstənin elektron sağlamlıq kartına onun FİN-i vasitəsilə inteqrasiya olunur».

Qanunda daha bir dəyişiklik ölkəmizdə istehsal edilən dərmanlarla bağlıdır. Belə ki, 13.2-1-ci maddədə göstərilir ki, Azərbaycanda istehsal olunan dərman vasitələrinin siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir: «Həmin siyahıya daxil edilmiş dərman vasitələrinin istehsalçının müraciəti əsasında aptek təşkilatlarında olması məcburidir. Aptek təşkilatı həmin dərman vasitələrinin qəbulunu, istehsalçı isə onların aptek təşkilatında yerləşdirilməsini təmin edir».

13.6-cı maddədə isə vurğulanır ki, reseptə yazılmış təsiredici maddə üzrə aptek təşkilatında mövcud olan dərman vasitələri və onların qiymətləri barədə aptek təşkilatının satıcısı tərəfindən istehlakçıya məlumat verilməlidir».

Qanunda «Bioloji fəallığa malik qida əlavələri» maddəsində dəyişikliklər onların dərman vasitəsi olmamasının daha aydın ifadə edilməsi ilə bağlıdır. Həmçinin qeyd olunur ki, bioloji fəallığa malik qida əlavəsinin və dövlət qeydiyyatına alınmış dərman vasitəsinin adlarında ən azı 4 (dörd) hərf fərqi olmalıdır. Bioloji fəallığa malik qida əlavəsinin tərkibində olmayan maddə onun adında istifadə edilə bilməz.

Yeni Qanuna əsasən, 16.4-cü maddə aşağıdakı redaksiyada verilib: «Dərman vasitəsinin dövlət qeydiyyatı haqqında vəsiqənin sahibi dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi məqsədilə bəyannamələri, hesabat sənədlərini və zəruri məlumatları dərman vasitəsi dövlət qeydiyyatına alındıqdan sonra 1 (bir) ay müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim etməyə borcludur».

Qanunda dəqiqləşdirmə və redaktə xarakterli bir sıra digər dəyişikliklər də edilib.

Sənəddə bildirib ki, bu Qanunun 1.11-ci maddəsi qüvvəyə minənədək təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq bütün tibb müəssisələrində çalışan, həmçinin özəl tibb fəaliyyəti ilə məşğul olan resept yazmaq hüququna malik tibb işçiləri (həkim və tibb məntəqələrinin feldşerləri) tərəfindən resept kağız daşıyıcısında yazılaraq pasiyentə təqdim olunacaq.

Qanunun 1.6-cı və 1.13.2-ci maddələri 2023-cü il noyabrın 1-dən, 1.11-ci maddəsi 2024-cü il yanvarın 1-dən qüvvəyə minəcək.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev **«Dərman vasitələri haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun tətbiqi və «Dərman vasitələri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 fevral tarixli 528 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman da verib.**

*(Davamı 4-cü səhifədə)*

# «Dərman vasitələri haqqında» Qanuna dəyişikliklər edildi

(Əvvəli 3-cü səhifədə)

Bu sənədə əsasən, «Dərman vasitələri haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə müəyyən edilib ki, «Dərman vasitələri haqqında» Azərbaycan Respublikası Qanununun maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini hansı hallarda Azərbaycan Respublikasının Prezidenti, hansı hallarda Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Nazirlər Kabineti həyata keçirir, eləcə də Qanunda «orqan (qurum)» dedikdə hansı maddələrdə Nazirlər Kabineti, hansı hallarda Səhiyyə Nazirliyi, hansı halda Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, Dövlət Gömrük Komitəsi, Tarif (qiymət) Şurası nəzərdə tutulur.

Fərmanda Nazirlər Kabinetinə tapşırılıb ki, Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının «Dərman vasitələri haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; dörd ay müddətində həmin Qanunun 1.0.33-cü maddəsinə uyğun olaraq, dərman vasitəsinin xarici (beynəlxalq) qeydiyyatının tanınması şamil olunan ölkələrin və xarici (beynəlxalq) təşkilatların siyahısını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin; həmin Qanunun 1.0.35-ci maddəsinə uyğun olaraq, «Dərman vasitələrinin təqib və izləmə sistemi»nin Əsasnaməsini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin; həmin Qanunun 6.8-ci maddəsinin birinci cümləsinə uyğun olaraq, bu Qanunun 1.0.8-ci maddəsi, 6.1-ci maddəsinin ikinci abzası, 6.13-cü, 6-1.2-ci, 6-2.15-ci, 6-2.17-ci və 6-2.19-cu maddələri nəzərə alınmaqla dərman vasitələrinin, dərman maddələrinin və tibb vasitələrinin dövlət qeydiyyatına alınması, dövlət reyestrinə daxil edilməsi və dövlət reyestrinin aparılması qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin; Qanunun 16.6-cı maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasında istehsal olunan dərman vasitələrinin istehsalçıları tərəfindən təqdim edilən məlumatların dairəsini müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; bu Fərmanın 3.2-ci bəndinə əsasən yaradılacaq «Dərman vasitələrinin təqib və izləmə sistemi»nin formalaşdırılması, aparılması və saxlanılması ilə əlaqədar xərclərin cari ildə dövlət büdcəsində nəzərdə tutulmuş vəsait çərçivəsində maliyyələşdirilməsi üçün, növbəti illərdə isə dövlət büdcəsi layihələrində müvafiq vəsaitin nəzərdə tutulması üçün tədbirlər görsün; «Dərman vasitələri haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

Səhiyyə Nazirliyinə isə həvalə olunub ki, üç ay müddətində «Dərman vasitələri haqqında» Azərbaycan Respublikası Qanununun 1.0.8-ci maddəsinə uyğun olaraq, risk dərəcəsi daha yüksək, yüksək və (və ya) orta olan tibb vasitələrinin siyahısını; Qanunun 4.2.16-cı maddəsinə uyğun olaraq, Etibarlı İstehsalat Təcrübəsinə dair tələbləri; Qanunun 6.8-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, tibb vasitələrinin risk dərəcəsindən asılı olaraq təsnifatını; Qanunun 9-1.15-ci maddəsinə uyğun olaraq, dərman vasitələrinin və dərman maddələrinin idxalına icazənin formasını; Qanunun 13.2-1-ci maddəsinin birinci cümləsinə uyğun olaraq, Azərbaycanda istehsal olunan dərman vasitələrinin siyahısını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

(Davamı 5-ci səhifdə)

# Sosial xidmətin inkişafına dair Dövlət Proqramı qəbul edildi

(Əvvəli 2-ci səhifədə)

Dövlət Proqramında səhiyyəyə, insan sağlamlığına dair bir sıra məsələlərə də toxunulur. Belə ki, proqramın «Qlobal trendlər» bölümündə qeyd olunur ki, Birləşmiş Millətlər Təşkilatının (BMT) Əhali Fondunun hesablamalarına əsasən, 2050-ci ildə dünya əhalisinin sayının daha 2 milyard nəfər artaraq 9,7 milyard nəfərə çatacağı proqnozlaşdırılır. Son onilliklər ərzində tibbin inkişafı, səhiyyə xidmətlərinin keyfiyyətinin artması nəticəsində dünyada insanların sağlamlıq və uzunömürlülük səviyyəsi yüksəlmiş, ümumilikdə dünya əhalisinin yaş strukturunda ahıl şəxslərin sayı əvvəlki dövrlərə nisbətən xeyli artmışdır.

Lakin son dövrlərdə dünyada baş verən bir sıra mənfi proseslər insanların bir qisminin həyat səviyyəsinə, sosial-psixoloji vəziyyətinə mənfi təsir göstərmiş, onların sosial təhlükəli vəziyyətə düşmələrinə səbəb olmuşdur.

Son illərdə Azərbaycan Respublikasında əhalinin etibarlı sosial müdafiəsi istiqamətində mühüm işlər görülmüşdür. Eyni zamanda, Azərbaycan Respublikası müxtəlif səbəblərdən çətin həyat şəraitinə düşmüş insanların sosial müdafiəsinin təmin edilməsi məqsədilə aidiyyəti beynəlxalq və regional təşkilatlar, müxtəlif qurumlar tərəfindən qəbul edilmiş bir sıra dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilə və sazişlərə qoşulmuşdur. Bu da insan hüquq və azadlıqlarının, o cümlədən vətəndaşların sosial hüquqlarının qəbul olunmuş beynəlxalq prinsip və normalar əsasında reallaşdırılmasına təminat vermişdir.

Proqramın «Azərbaycan Respublikasında sosial xidmət sisteminin mövcud vəziyyəti» bölümündə qeyd edilir ki, hər bir cəmiyyətdə uşaqların sosial müdafiəsi, sağlam və firavan böyüməsi, fiziki və mənəvi inkişafı üçün həyata keçirilən siyasət həmin cəmiyyətin ümumi inkişafının əsas keyfiyyət göstəricilərindən biri hesab edilir. Sivil və ümumbəşəri dəyərləri daim yüksək tutan Azərbaycan Respublikası da uşaqların münasib şəraitdə böyüyərək tərbiyə olunmaları və onların layiqli vətəndaş kimi formalaşmalarının təmin edilməsi sahəsində fəal siyasəti ilə fərqlənir.

Məişət zorakılığı ilə bağlı vəziyyət təhlil edilərkən vurğulanır ki, Azərbaycanda məişət zorakılığının profilaktikası, ona qarşı mübarizənin kompleks şəkildə həyata keçirilməsi məqsədilə «Məişət zorakılığının qarşısının alınması haqqında» Qanun qəbul edilib. Qanunun icrası ilə əlaqədar məişət zorakılığından zərər çəkmiş şəxslərə qeyri-dövlət yardım mərkəzlərinin akkreditasiyasını həyata keçirən komissiya yaradılıb, həmin komissiya tərəfindən 10 qeyri-dövlət yardım mərkəzi akkreditə edilib. Bu mərkəzlərdə zorakılıqdan zərər çəkmiş 1814 şəxsə sosial, psixoloji, hüquqi, ilkin tibbi yardım, səhiyyə müəssisələrinə yönləndirmə xidmətləri göstərilib, ehtiyacı olanlar müvəqqəti sığınacaqlarla təmin ediliblər.

Sosial xidmət sisteminin daha bir istiqaməti penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial müdafiəsi və sosial adaptasiyası, o cümlədən tibbi və sosial yardıma ehtiyacı olan şəxslərlə əlaqədar tədbirlərin təşkilidir.

Sosial xidmət sahəsində dövlət sifarişlərinin qeyri-hökumət və qeyri-kommersiya təşkilatlarına verilməsi nəticəsində 482 layihə icra edilib, layihələr çərçivəsində ümumilikdə 35 mindən artıq çətin həyat şəraitində olan şəxsə və onların ailələrinə sosial-psixoloji, sosial-hüquqi, tibbi-sosial, sosial-məişət xidmətləri, sosial-məsləhət yardımı göstərilib, sosial reabilitasiya və müalicələrinin təşkili, reinteqrasiya xidmətlərinin göstərilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilib.

«Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün Dövlət Proqramı»nın icrası ilə bağlı Tədbirlər Planında Səhiyyə Nazirliyi ilə bağlı bir sıra bəndlər var.

«Sosial xidmət sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi və sosial xidmət göstərilməsinə nəzarət mexanizminin müəyyən edilməsi» bölməsinin «Sosial xidmət sahəsini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsi» bəndində Nazirlər Kabineti əsas icraçı, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Elm və Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, Həmkarlar İttifaqları Konfederasiyası, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, yerli icra hakimiyyəti orqanları isə digər icraçılardır. «Sosial xidmət müəssisələrinin fəaliyyətinə nəzarətin vahid mexanizminin müəyyən edilməsi» bəndində də Nazirlər Kabineti əsas icraçı, Səhiyyə Nazirliyi digər iştirakçılardan biridir.

«Sosial xidmət sahəsində həyata keçirilən tədbirlərin effektivliyinin artırılması məqsədilə aidiyyəti dövlət orqanları (qurumları) arasında əlaqələrin genişləndirilməsi» bölməsinin «Sosial xidmət sahəsində fəaliyyətin əlaqələndirilməsi məqsədilə aidiyyəti dövlət orqanlarının (qurumlarının) səlahiyyətli nümayəndələrindən ibarət Koordinasiya Şurasının yaradılması və fəaliyyətinin Təşkili» bəndinin icrası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılıb. Digər icraçılar arasında Səhiyyə Nazirliyi də var. Həmin bölmənin «Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası məqsədilə birgə tədbirlərin həyata keçirilməsi və bu sahədə əməkdaşlığın genişləndirilməsi» bəndində də Səhiyyə Nazirliyi içraçılardan biridir.

Dövlət Proqramının «Sosial xidmət müəssisələrinin fəaliyyətinin təşkili və maddi-texniki bazasının təkmilləşdirilməsi» bölməsinin «Dövlət sosial xidmət müəssisələrinin maddi-texniki təminatının möhkəmləndirilməsi və həmin müəssisələrdə reabilitasiya şəraitinin müasir beynəlxalq təcrübəyə uyğun təşkili məqsədilə tədbirlər görülməsi» bəndinin, «Mütərəqqi beynəlxalq təcrübənin tətbiqi ilə sosial xidmət sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi» bölməsinin «Əlilliyi olan və ahıl şəxslər üçün mobil xidmətlərin göstərilməsi üzrə beynəlxalq təcrübənin öyrənilməsi və Azərbaycan Respublikasında tətbiqi ilə bağlı müvafiq tədbirlərin görülməsi», «Əhalinin sosial xidmətlərlə təmin edilməsində ünvanlılığın artırılması məqsədilə mövcud sosial xidmətlər haqqında əhali arasında maarifləndirmə tədbirlərinin həyata keçirilməsi» bəndlərinin icrasında da Səhiyyə Nazirliyinin iştirakı nəzərdə tutulub.

Proqramın «Uşaqların alternativ qayğı xidmətləri ilə əhatə olunması imkanlarının genişləndirilməsi» adlanan 8.5-ci bölməsinin «Himayədar ailə institutunun inkişafına hədəflənən tədbirlərin həyata keçirilməsi» bəndi üzrə planlaşdırılan tədbirlər arasında da Səhiyyə Nazirliyinin üzərinə müəyyən vəzifələr düşür.

«Sosial xidmət sistemində insan resurslarının inkişafı və təminatı» bölməsinin «Sosial xidmət sahəsində rəqabətqabiliyyətli kadr potensialının inkişafı üçün yeni peşə və kvalifikasiya standartlarının hazırlanması» bəndi «Sosial işçi», «Sosial xidmətçi», «Sosial pedaqoq» və «Sosial iş üzrə mütəxəssis- psixoloq» peşələri üçün peşə və kvalifikasiya standartları layihələrinin hazırlanmasını, aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılmasını və təsdiq olunmasını ehtiva edir. Səhiyyə Nazirliyi bu bölmənin həm bu, həm də «Sosial xidmət sahəsində yüksəkixtisaslı və peşəkar kadr hazırlığının həyata keçirilməsi məqsədilə ali təhsil müəssisələrində mövcud təhsil proqramlarının təkmilləşdirilməsi» bəndinin icrasında iştirak edəcək.

Qeyd edək ki, sadalanan bütün bəndlərin əsas icraçısı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, yalnız sonuncu bəndin əsas icraçısı Elm və Təhsil Nazirliyidir.

# «Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə *Azərbaycan Respublikasının Qanunu*

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq **qərara alır:**

«Tibbi sığorta haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, №1, maddə 4; 2001, №3, maddə 141; 2007, №12, maddə 1212; 2008, №11, maddə 960; 2014, №4, maddə 331; 2015, №4, maddə 352; 2016, №3, maddə 419; 2018, №4, maddə 651; 2019, №1, maddələr 36, 47, №12, maddə 1904; 2020, №3, maddə 227, №5, maddə 521, №12 (I kitab), maddə 1426; 2021, №7, maddələr 697, 711; 2022, №3, maddə 193, №12, maddə 1393; 2023, №1, maddə 10, №2, maddə 216) 2.1-ci maddəsinə «Mülki Məcəlləsindən,» sözlərindən sonra «Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında» Azərbaycan Respublikasının Qanunundan,» sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 6 iyul 2023-cü il*

# «Dərman vasitələri haqqında» Qanuna dəyişikliklər edildi

*(Əvvəli 4-cü səhifədə)*

Səhiyyə Nazirliyi həmçinin həmin Qanunun 1.0.35-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları» nəzərə alınmaqla, «Dərman vasitələrinin təqib və izləmə sistemi»nin yaradılmasını 2024-cü il yanvarın 1-dək təmin etməli, həmin informasiya sisteminin Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiyası üçün Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə zəruri tədbirlər görməlidir. Səhiyyə Nazirliyinə Qanunun 1.0.42-ci və 4.2.15-ci maddələrinə uyğun olaraq, klinik protokolların hazırlanmasını, onların elektron bazasının yaradılmasını və özünün rəsmi internet səhifəsində yerləşdirilməsini, habelə təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq bütün tibb müəssisələrinin, həmçinin özəl tibb fəaliyyəti ilə məşğul olan resept yazmaq hüququna malik tibb işçilərinin (həkim və tibb məntəqələrinin feldşerləri) həmin elektron bazaya çıxışını dörd ay müddətində təmin etmək tapşırılıb.

Qanunun 12-1-ci maddəsində nəzərdə tutulmuş reseptin formasını, habelə dərman vasitələrinə reseptlərin elektron formada yazılmasına imkan verən sistemin tətbiqini, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq bütün tibb müəssisələrinin, həmçinin özəl tibb fəaliyyəti ilə məşğul olan resept yazmaq hüququna malik tibb işçilərinin (həkim və tibb məntəqələrinin feldşerləri) həmin sistemə qoşulmasını 2024-cü il yanvarın 1-dən təmin etmək, eləcə də «Dərman vasitələri haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli Qanunundan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görmək də Səhiyyə Nazirliyinə həvalə olunub.

Tarif (qiymət) Şurası «Dərman vasitələri haqqında» Qanunun 4.5-ci maddəsində nəzərdə tutulmuş dərman vasitələrinin sadələşdirilmiş ekspertizası xidmətlərinin tariflərini, o cümlədən dərman vasitələrinin topdan və pərakəndə satış qiymətlərinin yuxarı həddini bir ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat verməlidir.

Fərmana əsasən, «Dərman vasitələri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 fevral tarixli 528 nömrəli Fərmanında da müəyyən dəyişikliklər edilib.

Bu Fərmanın 1.4-cü və 2.3-2-ci bəndləri («Dərman vasitələri haqqında» Azərbaycan Respublikası Qanununun 12-1.2-ci maddəsinə, 12-1.5-ci maddəsinin ikinci cümləsinə, 12-1.6-cı və 12-1.7-ci maddələrinə münasibətdə) 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

# Naxçıvan Tibb Kolleci ilə bağlı qərar qəbul olundu

**Azərbaycan Respublikası Nazirlər Kabineti Baş nazir Əli Əsədovun imzası ilə «Naxçıvan Dövlət Texniki Kollecinin və Naxçıvan Tibb Kollecinin Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Naxçıvan Dövlət Universitetinin nəzdinə verilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 15 iyul tarixli 118 nömrəli Qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı»nda dəyişiklik edilməsi haqqında» Qərar qəbul edib.**

Sənəddə deyilir ki, Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Nazirlər Kabineti Naxçıvan Dövlət Texniki Kollecinin və Naxçıvan Tibb Kollecinin Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Naxçıvan Dövlət Universitetinin nəzdinə verilməsi barədə Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə razılaşdırılmış təklifinin qəbul edilməsini qərara alır.

Elm və Təhsil Nazirliyinə və Naxçıvan Nazirlər Kabinetinə həvalə olunur ki, bu orta ixtisas təhsil müəssisələrinin Elm və Təhsil Nazirliyinin Naxçıvan Dövlət Universitetinin nəzdinə verilməsindən irəli gələn məsələləri qanunvericiliyin tələblərinə uyğun olaraq həll etsinlər.

Qərarda həmçinin bildirilir ki, Naxçıvan Dövlət Texniki Kollecinin və Naxçıvan Tibb Kollecinin cari ildə Elm və Təhsil Nazirliyinin Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyətinin maliyyələşdirilməsi Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsində müvafiq olaraq Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Naxçıvan Dövlət Texniki Kolleci və Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Naxçıvan Tibb Kolleci üzrə nəzərdə tutulmuş vəsaitlər çərçivəsində davam etdiriləcək, 2024-cü ildən isə Azərbaycan Respublikası dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərində Elm və Təhsil Nazirliyi üzrə nəzərdə tutulmuş vəsait hesabına həyata keçiriləcək.

Qərara əsasən, «Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı»nın «Orta ixtisas təhsili müəssisələri» bölməsinə «Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Dövlət Texniki Kolleci» və «Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Tibb Kolleci» məzmununda 48-ci və 49-cu hissələr əlavə edilib.

# İcbari tibbi sığortanın xidmətlər zərfinə yeni tibbi xidmətlər əlavə olunub

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun imzası ilə Nazirlər Kabinetinin «İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi»ndə dəyişiklik edilməsi barədə Qərarı qəbul olunub.**

Belə ki, Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 5 nömrəli Qərarı ilə təsdiq edilmiş «İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi»nə 794 yeni tibbi xidmət əlavə edilib. Nəticədə, icbari tibbi sığorta çərçivəsində göstərilən tibbi xidmətlərin sayı artaraq 3344-ə çatıb.

AZƏRTAC-ın verdiyi məlumata görə, yeni əlavə olunan tibbi xidmətlər ixtisaslaşdırılmış ambulator, laboratoriya, invaziv radioloji və stasionar tibbi xidmətlərdir. Bunların sırasına vətər, əzələ, sümük iliyi, böyrək və qaraciyər transplantasiyası əməliyyatları da daxildir.




Qaraciyər, böyrək və sümük iliyi transplantasiyası əməliyyatları üzrə illik limit sayı müvafiq olaraq 100, 150 və 20 müəyyən edilib. Bu transplantasiya əməliyyatları zamanı və transplantasiyadan sonra resipiyentin dərman təchizatı da xidmətlər zərfi ilə təminata alınıb. Qeyd edək ki, transplantasiya üçün bir canlı donorun əməliyyata hazırlanması və əməliyyatı tibbi xidmətin tarifinə daxildir.

Təminata alınmış əməliyyatlar sırasına ürək qapaqlarının dəyişdirilməsi və təmiri, anadangəlmə ürək qüsurlarının cərrahiyyəsi, minimal invaziv üsulla həyata keçirilən endovaskular əməliyyatlar, beyin və beyin qişalarında aparılan əməliyyatlar, xoşxassəli beyin şişlərin çıxarılması, sümük, əzələ uzadılması, serebral iflic zamanı aşağı ətraflarda aparılan bükücü vətərin uzadılması, vətərin fiksasiyası, skolioz əməliyyatı kimi dəyəri yüksək olan tibbi xidmətlər əlavə olunub.

Eyni zamanda, 1390 tibbi xidmətin tarifi dəyişdiriləcək aktual bazar qiymətlərinə uyğunlaşdırılıb. Tarifləri artırılan xidmətlərə misal olaraq ixtisaslaşdırılmış ambulator tibbi xidmət üzrə ixtisaslı həkim müayinəsini (17 manatdan 25 manata artıb), ginekoloqun müayinəsini (USM ilə; 25 manatdan 35 manata artıb), laboratoriya xidməti üzrə Hepatit B səthi anticisminin (HBsAb) (5 manatdan 16 manata artıb), Kalsiferolun (Vitamin D; 13 manatdan 21 manata artıb) təyin edilməsini, stasionar tibbi xidmətlər üzrə doğuşa əllə yardımı (350 manatdan 500 manata artıb), tək koronar arteriyanın (aorto) koronar şuntlama əməliyyatını (4 min manatdan 4 500 manata artıb) qeyd etmək olar.

Xidmətlər zərfinə edilmiş digər dəyişikliklərə əsasən, il ərzində limit sayı 300 olan koxlear implantasiya və oynaqdaxili endoprotezləşdirmə əməliyyatları üzrə sığorta limiti ləğv olunub.

# Dağınıq sklerozla bağlı Qaydaya dəyişiklik edildi

Baş nazir Əli Əsədov «Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə» 2012-ci il 5 dekabr tarixli 278 nömrəli, «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrinin Siyahısı»nın təsdiq edilməsi barədə» 2019-cu il 12 aprel tarixli 163 nömrəli, «Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası»nın təsdiq edilməsi haqqında» 2020-ci il 23 iyun tarixli 213 nömrəli, «Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması Qaydası»nın təsdiq edilməsi haqqında» 2021-ci il 23 dekabr tarixli 406 nömrəli və «Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı»nın təsdiq edilməsi haqqında» 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə» Nazirlər Kabinetinin Qərarını imzalayıb.

Sənəddə bildirildiyinə görə, Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 13 may tarixli «Səhiyyə və tibbi sığorta sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər və Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə» 2006-cı il 25 may tarixli 413 nömrəli, «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında» 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli, «Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında» 2018-ci il 20 dekabr tarixli 418 nömrəli, «Milli Hematologiya və Transfuziologiya Mərkəzinin yaradılması haqqında» 2019-cu il 23 dekabr tarixli 895 nömrəli fərmanlarında dəyişiklik edilməsi



barədə» Fərmanının icrasını təmin etmək məqsədilə qərara alır ki, özünün 2012-ci il 5 dekabr tarixli Qərarı ilə təsdiq edilmiş 1 nömrəli əlavə — «Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərin dövlət tibb müəssisələrində müayinə və müalicəsinin maliyyələşdirilməsi Qaydası»nın 3-cü hissəsinə «Nazirliyi» sözündən sonra «, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» sözləri əlavə edilsin.

Həmçinin Nazirlər Kabinetinin 2019-cu il 12 aprel tarixli Qərarı ilə təsdiq edilmiş «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrinin Siyahısı»nın 1-ci hissəsi və 2.1-ci bəndi ləğv olunub.

Nazirlər Kabinetinin 2020-ci il 23 iyun tarixli Qərarı ilə təsdiq edilmiş «Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası»nda 1.2.10-1-ci yarımbənd olaraq Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi əlavə edilib. Həmçinin 6.1.7-ci yarımbəndə də «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» sözləri əlavə olunub, eləcə də «tabeliyində olan tibb müəssisələri vasitəsilə onların» sözləri «tabeliyində tibb müəssisələri olduqda onlar vasitəsilə həmin vəsaitlərin» sözləri ilə əvəz edilib.

Nazirlər Kabinetinin 2021-ci il 23 dekabr tarixli Qərarı ilə təsdiq edilmiş «Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması Qaydası»nda 2.1-ci, 2.2-ci və 3.2-ci bəndlərdə «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» sözləri ismin müvafiq hallarında «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» sözləri ilə, 4.1-ci bənddə «işləməyən» sözü «işləyən» sözü ilə əvəz edilib.

Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli Qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı»na «Birliklər» bölməsi və həmin bölməyə «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» əlavə olunub.

# Sosial ictimai müəssisələrdə qida normalarına dəyişiklik edildi

**Nazirlər Kabineti «Təhsil müəssisələrində, xəstəxanalarda və sosial sahənin digər ictimai müəssisələrində vətəndaşların qida normalarının tətbiq edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 9 mart tarixli 103 nömrəli Qərarında dəyişiklik edilməsi barədə Qərar qəbul edib.**

Sənəddə bildirilir ki, Nazirlər Kabinetinin 1994-cü il 9 mart tarixli Qərarı ilə təsdiq edilmiş 4 nömrəli əlavə — «Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin ahıllar və əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələrində, həmçinin ağıldankəm uşaqlar üçün internat evlərində və Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin «DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi» Məhdud Məsuliyyətli Cəmiyyətində vətəndaşların qida normaları»nda cədvəldən sonrakı mətndə üçüncü abzas dördüncü abzas hesab olunaraq, həmin mətnə aşağıdakı məzmunda üçüncü abzas əlavə edilib:

«Fərdi Reabilitasiya Proqramının hazırlanması, təsdiq edilməsi və həyata keçirilməsi Qaydası»nın təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 dekabr tarixli 519 nömrəli Qərarına uyğun olaraq Fərdi Reabilitasiya Proqramı ilə müəyyən edilən və kənar şəxslərin daimi kömək və qayğısına ehtiyacı olan əlilliyi olan şəxslər reabilitasiya müəssisələrində müşayiət edən şəxslər (1 nəfərdən çox olmamaqla) üçün qida normalarının «Ümumi tipli əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələri (böyüklər)» üçün müəyyən edilmiş normalara uyğun tətbiq edilməsi dövlət büdcəsi hesabına təmin edilir».

# Koronavirusla mübarizədə iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin vaxtı uzadılıb



**Nazirlər Kabineti COVID-19-la mübarizədə iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin vaxtını uzadıb.**

Bununla bağlı Baş nazir Əli Əsədovun imzaladığı Qərara əsasən, yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə qərara dəyişiklik edilib.

Dəyişikliyə görə, həmin qrup tibb işçilərinin əməkhaqlarına verilən əlavənin müddəti 2023-cü il oktyabrın 2-dək uzadılıb.

Nazirlər Kabinetinin digər Qərarına əsasən, Bakıda koronavirus xəstələrinə yardım göstərən tibb işçilərinin də əməkhaqqına əlavənin müddəti uzadılıb.

Baş nazir Əli Əsədovun bununla bağlı imzaladığı Qərarla «Bakı Şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə» Qərarda dəyişiklik edilib.

Yeni Qərara əsasən, həmin qrup tibb işçilərinin əməkhaqlarına əlavənin ödənilməsi müddəti 2023-cü il oktyabrın 2-dək uzadılıb.

Qeyd edək ki, hər iki halda bu müddət iyulun 1-də başa çatmışdı.

# Fövqəladə Hallar Nazirliyi rentgen müayinələri ilə bağlı əhaliyə müraciət edib

**Tibb müəssisələrində rentgen müayinələrinin həyata keçirilməsi üçün zəruri təhlükəsizlik tələbləri təmin edildikdən sonra onlara xüsusi icazə sənədi verilir. Bu sənəd olmadan rentgen müayinələrinin həyata keçirilməsi ciddi qanun pozuntusudur, bununla yanaşı, insan həyatı və sağlamlığı üçün təhlükə mənbəyidir.**




Fövqəladə Hallar Nazirliyinin (FHN) mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazirlik bir daha əhaliyə müraciət edərək, həyat və sağlamlığa yaratdığı təhlükəni nəzərə alaraq, rentgen müayinələri üçün yalnız xüsusi icazə sənədi olan tibb müəssisələrinə müraciət edilməsini və bu icazə olmadan fəaliyyət göstərən müəssisələr aşkarlandıqda nazirliyin «112» qaynar telefon xəttinə məlumat verilməsini tövsiyə edir.

Rentgen və kompüter tomoqrafiyası müayinələri ilə bağlı xüsusi icazəsi olan müəssisələrin daim yenilənən siyahısı ilə FHN-in rəsmi internet portalında tanış olmaq mümkündür.

Həmçinin tibb müəssisələrinə əldə etdikləri xüsusi icazə sənədinin şüa diaqnostika şöbəsinin girişində asılması tövsiyə olunur.

**Özbəkistan Respublikasının Səmərqənd şəhərində Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin səhiyyə nazirlərinin III iclası və Türk Tibb Dünyası Konqresi keçirilib.**

# Türk dövlətləri ilə əlaqələr Azərbaycanın xarici siyasətinin prioritetlərindəndir

## *Azərbaycan səhiyyə naziri TDT-yə üzv ölkələrin səhiyyə nazirlərinin III iclasında çıxış edib*

Türk Dövlətləri Təşkilatının və Özbəkistan Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən beynəlxalq tədbirdə TDT-yə üzv və müşahidəçi ölkələrin səhiyyə nazirləri, ali tibb təhsili qurumlarının rəhbərləri, həmçinin müxtəlif ölkələrdən dəvət olunmuş elm adamları iştirak ediblər.

Azərbaycan Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, tədbirdə ölkəmiz səhiyyə naziri Teymur Musayevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunub.

Açılış nitqi ilə çıxış edən **Səmərqənd vilayətinin başçısı Erkinjon Turdimov** tədbir iştirakçılarını salamlayaraq iclasın işinə uğurlar arzulayıb.

Türk Dövlətləri Təşkilatının Baş katibi **Kubanıçbek Ömüralıyev** tədbirin səmərəli keçəcəyinə və gələcəkdə səhiyyə sahəsində əlaqələrin daha da möhkəm təməl üzərində qurulacağına əminliyini ifadə edib. Kubanıçbek Ömüralıyev müzakirə ediləcək məsələlərin və qəbul olunacaq qərarların yeni aspektdə təşkilatın işinə mühüm təkan verəcəyini qeyd edib.

İclasda çıxış edən **Azərbaycanın səhiyyə naziri Teymur Musayev** Türk Dövlətləri Təşkilatı və Özbəkistan Səhiyyə Nazirliyi tərəfindən keçirilən tədbirin yüksək səviyyədə təşkil olunduğunu və ölkələr arasında əməkdaşlığın müasir müstəvidə yeni prizmadan inkişafına təkan verəcəyini vurğulayıb: «Prezident İlham Əliyev TDT-nin IX Zirvə görüşündə çıxışında qeyd edib ki, Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə bütün sahələrdə əlaqələrin inkişafı Azərbaycanın xarici siyasətinin prioritetləri sırasındadır. Dövlət başçılarının birbaşa dəstəyi və himayəsi altında ölkələrimizin ictimai, siyasi, iqtisadi, mədəni, sosial həyatının bütün sahələrində əməkdaşlıq əlaqələri yüksələn xətlə inkişaf edir. Bu həm təşkilat çərçivəsində, eyni zamanda, ikitərəfli münasibətlərdə özünü ən yüksək şəkildə göstərir».

Azərbaycanın səhiyyə naziri ölkələrimiz arasında möhkəm təməllər üzərində qurulan münasibətlərin səhiyyə sahəsində də əlaqələrin ən yüksək şəkildə inkişafına zəmin yaratdığını vurğulayıb: «Təşkilata üzv və müşahidəçi ölkələrin səhiyyə nazirlərinin və elm adamlarının iştirakı ilə yaradılan bugünkü platforma nəinki təşkilatda təmsil olunan ölkələrin tibb mütəxəssisləri ilə, eyni zamanda, digər ölkələrdə fəaliyyət göstərən türksoylu peşəkarlarla əlaqələr qurmaq, onların təcrübələri ilə tanış olmaq və gələcəkdə qarşılıqlı əməkdaşlıq imkanları üçün geniş perspektivlər müəyyənləşdirir. Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi ölkələrin vahid tibb elmi məkanının yaradılması, birgə elmi tədqiqatların aparılması, vahid tibb təhsili standartlarının müəyyənləşdirilməsi, davamlı tibbi təhsilin təmin edilməsi kimi məsələləri birgə fəaliyyətimizin başlıca istiqamətləri hesab edirik. Səhiyyədə informasiya-kommunikasiya texnologiyalarının sürətli tətbiqi TDT çərçivəsində vahid elektron səhiyyə standartlarının hazırlanması ilə pasiyent məlumatlarının dövlətlərarası mübadiləsini mümkün edir», — deyə Teymur Musayev fikrini tamamlayıb.



Özbəkistanın səhiyyə naziri **Amrillo İnoyatov,** Türkiyənin səhiyyə naziri **Fahrettin Koca,** Qazaxıstanın səhiyyə naziri xanım **Ajar Giniyat,** Qırğızıstanın səhiyyə nazirinin birinci müavini **Tilek Mamadaliyev,** Tacikistanın səhiyyə naziri **Jamoliddin Abdullozoda,** Rusiya Federasiyası Tatarıstan Respublikasının səhiyyə naziri **Marsel Minnullin** çıxışlarında beynəlxalq tədbirin dünya ölkələrindən olan tərəfdaşlar arasında səhiyyə sahəsində əməkdaşlığın yeni perspektivlərini yaradacağını və bu istiqamətdə birgə fəaliyyətin təşviqinə mühüm töhfə verəcəyini vurğulayıblar. Eyni zamanda, Türk Tibb Dünyası Konqresi iştirakçıların səhiyyə sahəsindəki bilik və təcrübələrini qarşılıqlı olaraq bölüşmələri üçün əvəzsiz fürsət yaradacaq. Konqresdə mütərəqqi ideya və texnologiyaların tətbiqi ilə təşkilata üzv dövlətlərin səhiyyə sistemlərində birgə informasiya məkanının yaradılması, əczaçılıq sənayesi və tibbi avadanlıqların istehsalı sahəsinə investisiyaların cəlb edilməsi, tibbi turizm və tibbi xidmətlərin göstərilməsində dövlət-özəl tərəfdaşlığının inkişafının vacibliyi qeyd edilib.

Sonda Türk Tibb Dünyası Konqresinin yekun sənədi — Birgə Bəyannamə qəbul edilib. Sənəddə türkdilli dövlətlərin Farmakopeyasının və Qaydalarının tətbiqi sahəsində əməkdaşlığın gücləndirilməsi, habelə fövqəladə hallar zamanı humanitar və tibbi yardımın göstərilməsi məsələləri öz əksini tapıb.

Həmçinin yoluxucu xəstəliklərlə mübarizə üzrə TDT-nin birgə Fəaliyyət Planı layihəsinin hazırlanması, təşkilat çərçivəsində dərman vasitələrinin və tibbi texnikanın birgə istehsalı imkanlarının nəzərdən keçirilməsi, eyni zamanda, Türk Dövlətləri Təşkilatına üzv ölkələr tərəfindən tibb sahəsində verilmiş diplomların qarşılıqlı tanınması məsələləri sənəddə daxil edilib. Bundan əlavə, Bəyannamə TDT-yə üzv və müşahidəçi dövlətlərin iştirakı ilə sağlamlıq turizmi sahəsində birgə şəbəkənin yaradılması, Vahid Tibb Məlumat Lüğətinin hazırlanması və digər məsələləri də əhatə edir.

Toplantıda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin səhiyyə nazirlərinin növbəti iclasının keçiriləcəyi məkanla bağlı bir sıra təkliflər daxil olub və müzakirə edilib.

Baş katib Kubanıçbek Ömüralıyev Səmərqənd Bəyannaməsinə əsasən TDT-yə üzv ölkələrin səhiyyə nazirlərinin növbəti iclasının gələn il Azərbaycanın Şuşa şəhərində keçiriləcəyini elan edib. Baş katib tədbirin 2023-cü il üçün Türk Dünyasının Mədəniyyət paytaxtı olan Şuşada uğurla keçiriləcəyinə əminliyini ifadə edib.

Daha sonra Türk Tibb Dünyası Konqresi ilə paralel keçirilən «Özbəkistan - Türkiyə səhiyyə biznes forumu»nun sərgisi ilə tanışlıq olub. Forum iştirakçıları ilə əldə etdikləri nailiyyətlər və gələcək inkişaf proqramları ilə bağlı fikir mübadiləsi aparılıb.

Tədbir çərçivəsində Azərbaycanın səhiyyə naziri Teymur Musayevin Türk Dövlətləri Təşkilatının Baş katibi, təşkilata üzv və müşahidəçi ölkələrin səhiyyə nazirləri ilə bir sıra ikitərəfli görüşləri keçirilib.

Türk Tibb Dünyası Konqresi çərçivəsində Azərbaycanın səhiyyə naziri Teymur Musayev Türk Dövlətləri Təşkilatının Baş katibi **Kubanıçbek Ömüralıyevlə** görüş keçirib.

Görüş zamanı Kubanıçbek Ömüralıyev TDT-yə üzv ölkələrin səhiyyə nazirlərinin növbəti iclasının Şuşa şəhərində keçiriləcəyi münasibətilə təbriklərini çatdırıb. Yalnız bu ilin iyul ayında iki dəfə Azərbaycana səfər edərək Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Nazirlər İclasında və Şuşa Qlobal Media Forumunda iştirakını bildirən təşkilatın Baş katibi ölkəmizin müxtəlif beynəlxalq tədbirləri hər zaman yüksək səviyyədə təşkil etdiyini vurğulayıb.

Göstərilən yüksək etimada görə TDT-nin Baş katibinə təşəkkürünü bildirən **Teymur Musayev** söyləyib ki, uğurlu fəaliyyət nəticəsində quruma üzv və müşahidəçi ölkələr arasında münasibətlərin, o cümlədən regional əməkdaşlığın dərinləşməsində təşkilat mühüm rol oynayır. «Azərbaycan Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının beynəlxalq səviyyədə önəminin, quruma üzv və müşahidəçi ölkələrin beynəlxalq nüfuzunun və sosial-iqtisadi potensialının artmasını yüksək qiymətləndirir», — deyə Azərbaycanın səhiyyə naziri qeyd edib.

Teymur Musayev həmçinin öz həmkarları — Özbəkistanın səhiyyə naziri Amrillo İnoyatov, Türkiyənin səhiyyə naziri Fahrettin Koca və Qazaxıstanın səhiyyə naziri xanım Ajar Giniyatla ikitərəfli görüşlər keçirib.

Konstruktiv və qarşılıqlı anlaşma mühitində keçən görüşlər zamanı səhiyyə və tibb elmi sahəsində ölkələr arasında əməkdaşlığın mövcud vəziyyəti və potensial inkişaf perspektivləri, uğurlu təcrübə mübadilələri və mütərəqqi nailiyyətlərin qarşılıqlı tətbiqi imkanları müzakirə olunub.

Keçirilən ikitərəfli görüşlər çərçivəsində Teymur Musayev qeyd edib ki, 30 illik işğaldan sonra azad olunan əzəli torpaqlarımızda Türkiyə dövləti bərpa-quruculuq işlərinə aktiv şəkildə cəlb olunub və bir çox infrastruktur layihələrində iştirak edir. Bundan başqa, işğaldan azad edilmiş Füzuli şəhərində Özbəkistan hökumətinin qərarı ilə məktəb, Qazaxıstan hökuməti tərəfindən isə Uşaq Yaradıcılıq Mərkəzi inşa olunur. Həmçinin Azərbaycan - Özbəkistan İnvestisiya Fondunun da uğurla fəaliyyət göstərdiyi vurğulanıb.

## Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın «Səhiyyə sistemi» işçi qrupunun növbəti iclası keçirilib

**Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın «Səhiyyə sistemi» işçi qrupunun video-konfrans formatında növbəti iclası baş tutub.**

Səhiyyə nazirinin müavini Rasim İsmayılovun sədrliyi ilə keçən iclasda işçi qrupun müvafiq qurum nümayəndələri yarımillik hesabatlarla çıxış ediblər. Həmçinin Komissiyanın fəaliyyətinin daha da optimallaşdırılması məqsədilə digər qurumları təmsil edən yeni üzvlərin təqdimatları dinlənilib.

Video-konfrans formatında keçirilən iclasda səhiyyə sahəsində aparılan yeni islahatlar, gələcək istiqamətlər barədə məlumatlar verilib. Həmçinin sağlam həyat tərzinin təbliği istiqamətləri, səhiyyə xidmətlərinin əlçatanlığı və s. məsələlər ətrafında müzakirələr aparılıb.

İclasın sonunda növbəti görüşdə müzakirə olunacaq işlər barədə qərar verilib.

## Ombudsman Aparatı ilə ÜST arasında əməkdaşlıq perspektivləri müzakirə olunub

**Ombudsman Aparatının rəhbəri Aydın Səfixanlı Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) ölkə nümayəndəliyinin regional məsləhətçisi Peter Hyus ilə görüşüb.**



Ombudsman Aparatından verilən məlumata görə, görüşdə ÜST-nin ölkə nümayəndəliyi tərəfindən həyata keçirilən «Psixi sağlamlıq xidmətlərinin münaqişədən sonrakı dövrdə koordinasiyası və transformasiyası» adlı layihə barədə müzakirə aparılıb, həkimlərin, psixoloqların, sosial işçilərin postmüharibə dövründə əhaliyə psixoloji və sosial yardım göstərməsi üçün bilik və bacarıqlarının artırılması ilə bağlı görüşülüb.

A.Səfixanlı qonaqları Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyevanın bu istiqamətdə fəaliyyəti, dövlət qurumları, vətəndaş cəmiyyəti institutları və beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq əlaqələri barədə məlumatlandırıb. Ombudsmanın təşəbbüsü əsasında şəhid ailələri, müharibə veteranları, hərbi əməliyyatlar zamanı zərər ülən işlərə toxunulub. Eyni zamanda, müharibə veteranlarının, şəhid ailələri üzvlərinin, məişət zorakılığından zərər çəkən şəxslərin hüquqlarının təmini məqsədilə həyata keçirilən tədbirlərdən danışılıb.

çəkmiş mülki şəxslər üçün ödənişsiz tibbi-psixoloji yardım aksiyalarının təşkil edildiyi, habelə «916» Çağrı mərkəzinin müraciətlərin qəbulu ilə əlaqədar 24 saat fəaliyyət göstərdiyi bildirilib. Əlavə edilib ki, ombudsmanın regional mərkəzləri tərəfindən davamlı olaraq bu mövzuda əhali qrupları ilə iş aparılır, mütəmadi olaraq maarifləndirici tədbirlər təşkil olunur.

Bundan başqa, azad edilmiş ərazilərə səfər edən və ya orada çalışan çoxsaylı insanların Ermənistan tərəfindən basdırılmış mina və digər hərbi sursatların partlaması nəticəsində ağır bədən xəsarətləri aldığı, bu baxımdan həmin şəxslərə psixoloji dəstək göstərilməsinə və onların hüquqlarının təmininə diqqətin artırılmalı olduğu vurğulanıb.

Görüş zamanı Ombudsman Aparatı ilə ÜST arasında birgə əməkdaşlıq perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

## ÜST-nin Azərbaycan nümayəndəliyinin heyəti Naxçıvana işgüzar səfər edib

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı Ofisinin rəhbəri Hande Harmancının başçılıq etdiyi nümayəndə heyəti Naxçıvanda üçgünlük səfərdə olub.**

ÜST-nin Azərbaycan nümayəndəliyindən verilən məlumata görə, səfər Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin dəvəti ilə baş tutub.

Səfərin ilk günündə qonaqlar Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, Heydər Əliyev Muzeyində olublar.

Sonra Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli ilə görüş keçirilib və gələcək əməkdaşlıq imkanları müzakirə edilib.

Daha sonra Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin birinci müavini, nazir vəzifələrini icra edən Samiq Sadıxovun başçılıq etdiyi nümayəndə heyəti ilə işgüzar görüşdə ilkin səhiyyə, təcili tibbi yardım, laboratoriya, ictimai səhiyyə və tibb təhsili mövzuları ilə bağlı geniş müzakirələr aparılıb.

Qonaqlar həmçinin ilkin səhiyyə xidməti müəssisəsinə baş çəkib və yaradılan şəraitlə tanış olublar.

Səfər çərçivəsində ÜST-nin nümayəndə heyətinə muxtar respublikanın səhiyyə sistemində son aylarda həyata keçirilmiş islahatlar, tibbi xidmətin keyfiyyətinin artırılmasına yönəlmiş işlər, həmçinin yaxın zamanlarda reallaşdırılacaq layihələrlə bağlı məlumat verilib. Qonaqlar Naxçıvan şəhərində, Ordubad, Şərur və Babək rayonlarında yeni yaradılan Ailə Sağlamlıq mərkəzlərinə baxış keçiriblər, habelə Babək rayon Hacıvar kənd Feldşer-Mama Məntəqəsinə baş çəkiblər.

Müəssisələrin tibb işçiləri ilə görüşlər keçirilib, görülən işlərlə bağlı müzakirələr aparılıb və müvafiq tövsiyələr verilib. Ekspertlərə muxtar respublikada ailə sağlamlıq mərkəzlərinin yaradılmasının məqsədi və əhəmiyyəti barədə ətraflı məlumat verilib.

Nümayəndə heyəti son olaraq nazirliyin tabeliyində olan Duzdağ Fizioterapiya Mərkəzini ziyarət edib, orada yaradılan şəraitlə yaxından tanış olub.

# Ümumdünya Ana südü ilə Qidalanma Həftəsi keçirildi




**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) təşəbbüsü ilə avqustun 1-dən 7-dək dünyada Ümumdünya Ana südü ilə Qidalanma Həftəsi keçirilir.**

AZƏRTAC xəbər verir ki, belə bir günün təsis edilməsi 1990-cı ildə ÜST və BMT-nin Uşaq Fondu (UNICEF) tərəfindən ana südü ilə qidalanmanın qorunması, təşviqi və dəstəklənməsinə yönəlmiş İnnoçenti Bəyannaməsinin qəbul edilməsi ilə əlaqədardır.

Hazırda dünyanın 170-dən çox ölkəsində Ümumdünya Ana Südü Həftəsi qeyd olunur. Onun məqsədi qadınları ana südü ilə qidalandırmanın sağlamlıq faydaları haqqında məlumatlandırmaqdır.

Tədbirin koordinatoru olan Qlobal Ana südü ilə Qidalanma Alyansının fikrincə, ana südü ilə qidalandırma yeni doğulmuş körpələri ehtiyac duyduqları qidalarla təmin etməyin ən yaxşı yoludur.

ÜST körpələrin altı ay müddətində ana südü ilə qidalanmasını, həmin müddətdən sonra isə onu lazımi qidalarla birlikdə davam etməyi tövsiyə edir. Bununla yanaşı, mütəxəssislər körpənin dünyaya gəldiyi ilk saat ərzində ana südü ilə qidalanmaya başlamağın vacibliyini də qeyd edirlər.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, UNICEF və Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən hər il bu həftə ölkəmizdə müxtəlif tədbirlərlə qeyd olunur. Bu tədbirlərin keçirilməsində məqsəd körpələrin ana südü ilə qidalandırılmasını təbliğ və təşviq etmək, ana südü ilə qidalandırmanın körpələrin və anaların sağlamlığı üçün əhəmiyyəti barədə geniş maarifləndirmə işi aparmaqdır.

Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) tərəfindən bu istiqamətdə müntəzəm olaraq maarifləndirmə tədbirləri həyata keçirilir, məlumatlandırıcı materiallar hazırlanaraq nəşr edilir və əhaliyə paylanılır.

Bu il də İSİM Abşeron Rayon İcra Hakimiyyəti ilə birgə əhali üçün ana südü ilə qidalandırmaya həsr olunan təşviqat aksiyası keçirib.

Mərkəzdən verilən məlumata görə, ictimaiyyət nümayəndələri və yerli sakinlərin fəal iştirak etdikləri aksiyanın məqsədi uşaqların sağlam inkişafı və qidalanması ilə bağlı maarifləndirmə aparmaq idi.

Ümumdünya Ana Südü ilə Qidalanma Həftəsi çərçivəsində keçirilən aksiyada iştirakçılara körpələrin düzgün bəslənməsi barədə dolğun məlumat verilib. Vurğulanıb ki, körpə xəstəliklərə qarşı əsas anticisimləri ana südündən alır və bu südlə qidalandırma immunitetin güclənməsinə, körpənin sağlam böyüməsinə kömək edir. Hamilələr və gənc analara yeni doğulmuş körpəni həyatının ilk saatından başlayaraq 6 ay ərzində yalnız ana südü ilə qidalandırmaq və onunla qidalandırmanı dayandırmaq haqqında uşağın 1-2 yaşından tez düşünməmək tövsiyə olunub.



Aksiya iştirakçılarına həmçinin xəstəliklərin əsas risk amilləri, zərərli vərdişlər barədə məlumat verilib, sağlam həyat tərzi sürmək tövsiyə olunub, Mərkəz tərəfindən hazırlanaraq nəşr edilən maarifləndirici materiallar paylanılıb.

Qeyd edək ki, UNICEF-in hesablamalarına əsasən, anaların yalnız 12 faizi öz körpələrini ilk 6 ay ərzində heç bir əlavə qida olmadan yalnız ana südü ilə qidalandırır. Elmi olaraq hələ də tərkibi tam müəyyənləşdirilməyən ana südündə hər il yeni maddələr aşkarlanır və bu komponentlər körpələrin sağlamlığı üçün əvəzedilməzdir.

# ÜST bir çox ölkədə COVID-19-un davamlı olması barədə xəbərdarlıq edib

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) COVID-19 üzrə texniki rəhbəri bir çox ölkədə virusun davamlılığı ilə bağlı xəbərdarlıq təbili çalır.**

AZƏRTAC xəbər verir ki, yoluxucu xəstəliklər üzrə amerikalı mütəxəssis Maria Van Kerxove İsveçrənin gündəlik «Le Temps» qəzetinə müsahibəsində deyib: «Dünya unutmuş kimi görünsə belə, biz həmişə COVID-19-u ciddi qəbul etməliyik. Virus planetin bir çox ölkələrində özünün mutasiya şansını artıraraq çox dövr etməkdə davam edir. Biz EG.5 və BA.2.86 daxil olmaqla, ən son variantları diqqətlə izləyirik».

ÜST iyulun 17-dən avqustun 13-dək altı regionda COVID-19-a 1,4 milyon yeni yoluxma və 2300-dən çox ölüm faktı qeydə alıb. Bu, əvvəlki 28 günlük dövrlə müqayisədə yoluxma hallarında 63 faiz artım deməkdir.

Maria Van Kerxove həmçinin hökumətləri virusa qarşı tədbirli olmağa çağırıb.




O əlavə edib: «Biz BA.2.86 və ya digər variantlardan asılı olmayaraq, yeni infeksiya dalğalarını gözləyirik. Yeni ölümlərin və xəstəxanaya yerləşdirmə dalğasının qarşısını almaq istəyiriksə, ayıq-sayıq olmalıyıq».

ÜST öz saytında bu günə qədər bütün planetdə 769 milyondan çox yoluxma halının qeydə alındığı və pandemiyanın 6,95 milyondan çox insanın həyatına son qoyduğu barədə məlumat verib. BMT-nin səhiyyə orqanı əlavə edib ki, son yeddi gündə 3446 yeni yoluxma qeydə alınıb.

ÜST həmçinin COVID-19-la mübarizənin davam etməsinin vacibliyini vurğulayıb və bununla bağlı texnologiyalara, biliklərə və klinik məlumatlara əlçatanlığı yaxşılaşdırmaq üzrə tərəfdaşlığın genişlənməsini də elan edib.

BMT-nin saytı xəbər verir ki, C-TAP adı verilən tərəfdaşlıq 2020-ci ildə ictimai səhiyyəyə yönəlmiş şəffaf və qeyri-eksklüziv lisenziya müqavilələri vasitəsilə COVID-19-la mübarizədə tibbi məhsullara vaxtında, ədalətli və sərfəli çıxışı təşviq etmək üçün başlanılıb.

ÜST-nin baş direktoru Tedros Gebreyesus bununla bağlı deyib: «COVID-19 yox olmayacaq və dünya onun profilaktikası, testi və müalicəsi üçün alətlərə ehtiyac duymaqda davam edəcək».

Azərbaycanda indiyədək koronavirus infeksiyasına 832 mindən çox yoluxma qeydə alınıb, 10 mindən artıq adam həyatını itirib. Ölkədə vurulan vaksinlərin ümumi sayı isə 14 milyon dozaya yaxındır.

# ÜST: Dünyada vəba xəstəliyinin yayılma riski çox yüksəkdir

**Bu ilin əvvəlindən dünyada vəba xəstəliyinə yoluxma halları 25 ölkədə qeydə alınıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu göstərici 9 ölkə artıb.**

Bu barədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) yaydığı məlumatda bildirilir ki, vəba xəstəliyinin gələcəkdə yayılma riski çox yüksəkdir. ÜST informasiya bülletenində qeyd edib ki, ilin əvvəlindən iyulun 15-dək ən azı 25 dövlət vəba xəstəliyinə yoluxma halları barədə məlumat verib. Bu xəstəliyin müəyyən edilməsi barədə son tarixli məlumat may ayının ortalarında Hindistandan daxil olub.

Ötən ilin müvafiq dövrü ərzində vəba xəstəliyinə yoluxma halları 16 ölkədə qeydə alınmışdı. «Yoluxma hallarının sayının artmasını və coğrafi yayılmasını, vaksin və digər resursların çatışmazlığını nəzərə alaraq, ÜST qlobal səviyyədə riskin çox yüksək olduğunu qiymətləndirməkdə davam edir», — deyə Təşkilatın Cenevrə mənzil-qərargahından bildirilib.

ÜST planetin bəzi ölkələrində və regionlarında vəba xəstəliyinin yayılmasına səbəb olan amillər kimi xüsusilə Qərbi Afrikada may ayından oktyabr ayına qədər davam edən yağışlar mövsümünün adını çəkir. Bundan başqa, təşkilatda hesab edirlər ki, adətən, Cənubi Amerikanın cənub hissəsində, ABŞ-ın cənubunda, Afrika Buynuzunda və Mərkəzi Asiyada yağıntıların artmasına səbəb olan El-Ninyo təbii fenomeni, çox güman ki, vəba xəstəliyinə yoluxma hallarının dinamikasını dəyişəcək. Çünki yağıntıların miqdarının, daşqınların, qasırğaların, siklonların və quraqlıqların artması təmiz su və səhiyyə resurslarına çıxışı məhdudlaşdıra bilər. El-Ninyo ilə əlaqədar olaraq suyun daha yüksək temperaturu da su mühitində vəba vibrionunun çoxalmasına səbəb ola bilər ki, bu da vəba xəstəliyinə yoluxma hallarını artırır.

Hazırda xəstəlik ən çox xüsusilə Afrikaya təsir edib. İlin əvvəlindən bəri 14 Afrika ölkəsi vəba xəstəliyinə yoluxma halları barədə məlumat verib. Xəstəliyə yoluxma halları xüsusilə Konqo Demokratik Respublikası, Kamerun, Malavi, Mozambik, Somali, Efiopiya və Cənubi Afrika Respublikasında qeydə alınıb.

Suriyanın şimal-qərbində 109 min, bu ölkənin qalan hissəsində 74 min, Əfqanıstanda 98 min, Malavidə 58 min, Haitidə 55 min və Mozambikdə 33 mindən çox vəba xəstəliyinə yoluxma halları qeydə alınıb.

Qeyd edək ki, vəba vibrionların (vəba törədicisi) səbəb olduğu xüsusilə təhlükəli yoluxucu xəstəlikdir. Bağırsaq infeksiyası sərt və şiddətli ishal ilə müşahidə edilir. Bu xəstəlik üçün güclü zəhərlənmə, qusma, ishal, orqanizmin kəskin susuzlaşması və nazik bağırsağın zədələnməsi xarakterik cəhətlərdir. Vəba xəstəliyinə ölüm halları yüksəkdir. Günəş işığı bu törədicilərə məhvedici təsir göstərir. Vibrion qaynadıldıqda, habelə xlorlu əhəng və xloramin məhlulunun təsirindən tez məhv olur.

# Xalq təbabəti – səhiyyənin keçmişi və gələcəyi arasında körpü

**Hindistanın Qandinaqar şəhərində Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) xalq təbabətinə həsr olunan ilk qlobal sammiti keçirilib. Tədbirin əsas mövzusu səhiyyə sahəsində problemlərin həllində ənənəvi, komplementar və interqrativ (müxtəlif yanaşmaları birləşdirən) tibbin rolunun tədqiq edilməsi olub.**

ÜST xəbər verir ki, sammitdə xalq təbabətinin və onun sağlamlığa təsirinin sistematik nəzərdən keçirilməsinin nəticələri, müxtəlif vasitələrin klinik effektivliyinə dair məlumatlar, eləcə də süni intellektin xalq təbabəti sahəsində təsirinə dair tədqiqatların nəticələri təqdim olunub.

«Ənənəvi tibbin səhiyyə sisteminə tətbiq edilməsi düşünülmüş, səmərəli və — ən əsası — təhlükəsiz şəkildə, ən aktual elmi məlumatların əsasında həyata keçirildikdə, o, bütün dünyada milyonlarla insan üçün tibbi yardıma çıxışda boşluqların aradan qaldırılmasına köməklik edə bilər. Bu, insanla bağlı sağlamlığa və rifaha yanaşmaların reallaşdırılmasında mühüm addım ola bilər», — deyə ÜST-nin baş direktoru Tedros Adhanom Gebreyesus bildirib.

Qeyd olunub ki, formalaşmış ənənəvi müalicə üsulları uzunmüddətli müşahidələrin və təcrübənin nəsildən-nəslə keçməsinin nəticəsidir. Bu irs insanın ətraf mühitə uyğunlaşmaq və onunla qarşılıqlı fəaliyyət göstərmək qabiliyyətini əks etdirir. Beləliklə, bitkilərin müalicəvi xüsusiyyətlərinə dair xalqların bilikləri müasir tibbin əsasını təşkil edir.

ÜST xalq təbabəti, o cümlədən ənənəvi hind təbabətinin Ayurveda sisteminin əhəmiyyətini təsdiqləyir. Yoqa və akupunktur da xroniki xəstəliklərin müalicəsində uğurla istifadə edilən ənənəvi təcrübələrin nümunələridir.

# Aritmiyanın müalicəsində yeni üsul

**Praqanın «Na Homolce» klinikasında aritmiyanın müalicəsi üçün yeni üsul sınaqdan keçirilir. Yeni metod elektrik enerjisinin krioenerji ilə birləşməsinə əsaslanır.**

Ruski.radio.cz xəbər verir ki, bu məqsədlə hazırda işlənən metod — impulslu elektrik sahəsindən istifadə etməklə ablasiya proseduru da vaxtilə dünyada ilk dəfə məhz bu xəstəxanada tətbiq olunmuşdu. Bu üsul atrial fibrilyasiyanın hər hansı forması olan xəstələrin 80 faizinə kömək edir. İndi isə çexiyalı kardioloqlar həmin metoddan yararlana bilməyənlər üçün təzə üsulları sınaqdan keçirmək qərarına gəliblər.

Yeni kateterizasiya metodu özündə toxumaların dondurulması və elektroporasiyasını, elektrik sahəsinin təsiri altında ikiqatlı lipid membranında məsamələrin yaradılmasını birləşdirir. Bu fenomen biotexnologiyada makromolekulların tətbiqi üçün, eləcə də tibb və sənayedə istifadə olunur.

Xəstəxananın kardioloqu Yan Petru deyir ki, krioenerji sayəsində kateter donaraq, boşalmaların baş verəcəyi yerə yapışır. Donma təklikdə toxumaların dağılmasına səbəb ola bilərdi, ancaq onunla birlikdə impuls sahəsinin tətbiqi ablasiya vasitəsilə müdaxilənin effektivliyini və davamlılığını artırır.

Klinik tədqiqatın gedişində narkoz altında olan sayrışan aritmiya xəstəsinin klinik proseduru ürəyin 3D modelinin yaradılması, elektroanatomik xəritəsinin çəkilməsi ilə başlayır. Həkimlərin ixtiyarında bu orqanın elektrik fəaliyyətinin 3D xəritəsi, sol atriumun üçölçülü exokardioqrafiya ilə təsviri, həmçinin ürəyin ultrasəs və rentgenoqrafiya müayinələrinin nəticəsi olur.

Atrial fibrilyasiyası olan xəstələrdə ürək vurmalarının sayı normadan çox yüksək ola bilər, nəticədə, ürək qanı səmərəli şəkildə bədənin orqan və toxumalarına çatdıra bilmir, eyni zamanda, qanın ürəkdə durğunluğu və laxtalanması ehtimalı artır.

Klinik tədqiqat zamanı həkimlər kateteri qasıqdan qan damarına daxil edərək, buradan ürəyin sol və sağ qulaqcıqlarına çatırlar, onun içi ilə dondurucu kateteri, bunun içi ilə isə ürək nahiyəsində manipulyasiya etmək imkanı verən tel ötürücünü keçirirlər. Əvvəlcə prosedur yeri dondurucu ilə 30 saniyə ərzində dondurulur. Sonra müəyyən yerdən elektrik boşalması keçir.

Doktor Pyotr Neujil prosesi şərh edərək deyir ki, hazırda dondurma temperaturu lazım olan həddə — 178 dərəcəyə çatıb: «Bunun əhəmiyyəti var, çünki impuls sahəsi donmuş hüceyrələrə təsbiq edilir, bu daha dərinə nüfuz etmək imkanı yaradır. Hesab edirik ki, donma ilə impuls sahəsinin birgə istifadəsi daha effektiv olacaq, beləliklə, biz toxumanın daha dərin qatlarına təsir edə biləcəyik».

Hazırda yeni metod klinik təcrübədən keçirilir. İndiyədək bu prosedur vasitəsilə dörd xəstə müalicə edilib. Həkimlər ilk növbədə onun pasiyentlər üçün təhlükəsiz olub-olmamasını araşdırırlar.

# «Talassemiyasız həyat naminə» proqramı çərçivəsində növbəti qanvermə aksiyası keçirilib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə keçirilən «Talassemiyasız həyat naminə» proqramı çərçivəsində Qida Təhlükəsizliyi İnstitutunda könüllü qanvermə aksiyası təşkil olunub.**



AZƏRTAC xəbər verir ki, talassemiyadan əziyyət çəkən uşaqlar üçün qan toplamaq məqsədilə keçirilən aksiyada Qida Təhlükəsizliyi Agentliyi və Qida Təhlükəsizliyi İnstitutunun kollektivləri iştirak edib.

Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Qan Bankının xüsusi tibb briqadasının həkim-hematoloqları hər bir donorun sağlamlığını yoxladıqdan sonra qan götürüblər. Toplanılan qandan ehtiyacı olan xəstələrin müalicəsi üçün istifadə ediləcək.

Daha bir könüllü qanvermə aksiyası Kənd Təsərrüfatı Nazirliyində keçirilib. Hemofiliya, talassemiya və digər qan xəstəliklərindən əziyyət çəkənlərə yardım məqsədi daşıyan aksiya Kənd Təsərrüfatı Nazirliyinin və Səhiyyə Nazirliyinin Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Mərkəzi Qan Bankının birgə təşəbbüsü ilə baş tutub.

Aksiyada Kənd Təsərrüfatı Nazirliyinin rəhbərliyi, nazirliyin və tabeli qurumlarının əməkdaşları, Aqrar İnkişaf Könüllüləri iştirak ediblər.

Aksiyaya qoşulanlar qan xəstəliklərindən əziyyət çəkən uşaqlar üçün könüllü qan verməyin savab iş olduğunu vurğulayıb, belə aksiyalarda yaxından iştirak etməyin vətəndaşlıq borcu olduğunu bildiriblər.

Belə xeyriyyə tədbirlərinin gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

# İyul ayında 31 aptekdə yoxlama aparılıb

**Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi qanunvericiliyə uyğun olaraq əczaçılıq müəssisələrində nəzarət yoxlamaları aparır.**



Mərkəzdən verilən məlumata görə, 2023-cü il iyul ayı ərzində ümumilikdə 31 aptekdə yoxlamalar həyata keçirilib.

Aparılan yoxlamalar nəticəsində əczaçılıq müəssisələrində 2 protokol tərtib edilib.

**Belin aşağı nahiyəsində yaranan ağrı dünyada əlilliyin əsas səbəblərindən biri hesab olunur və hazırda 600 milyondan çox insan həmin problemdən əziyyət çəkir.**

# 2050-ci ilə qədər dünyada 843 milyon insan bel ağrısından əziyyət çəkəcək

AZƏRTAC bildirir ki, aparılan yeni bir tədqiqat bel ağrısının qlobal yükünü ölkə, il, yaş, cins və ağrının şiddətinə görə qiymətləndirib. Araşdırmanın nəticələrində bel ağrısının son üç onillikdə əlilliyin bir nömrəli səbəbi olduğu və 2050-ci ilə qədər dünyada 843 milyon insanın bu problemdən əziyyət çəkəcəyi müəyyənləşib.



"The Lancet Rheumatology" jurnalında dərc olunan tədqiqatın müəllifləri qeyd ediblər ki, insan onurğasının anatomik mürəkkəbliyi sadə diaqnostikalarla müəyyən edilə bilməz. Piylənmə, tütün məhsullarından istifadə, hərəkətsizlik kimi qlobal problemlər həll edildiyi təqdirdə, bel ağrısı şikayəti 39 faiz azala bilər. Siqaret çəkmək disklər və oynaqlar kimi onurğa strukturlarının mikrosirkulyasiyasının pozulması, həmçinin sümüklərin zəifləməsinə səbəb olur. Eyni zamanda, bir sıra digər xəstəliklər kimi, bel ağrısının da yaranması fiziki hərəkətsizlik, piylənmə və yuxusuzluq kimi amillərlə əlaqələndirilir. Sözügedən problemlər bel ağrısı riskinin artması ilə nəticələnir. Bioloji, sosial və psixoloji faktorlar da daxil olmaqla, bir çox amillərin təsir göstərdiyi bel ağrısına qadınlarda daha çox rast gəlinir.

## AŞAĞIDAKI TİBB MÜƏSSİSƏLƏRİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR

### «Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu» PHŞ

*Elmi-ftizioterapiya:*
Elmi işçi (ftiziatriya) - 1.0 (müsabiqə)

*Elmi-ftiziocərrahiyyə:*
Şöbə müdiri (ümumi cərrahiyyə), t.ü.f.d. - 1.0 (müsabiqə)
Elmi işçi (ümumi cərrahiyyə) - 1.0 (müsabiqə)

*Elmi pulmonologiya:*
Şöbə müdiri (pulmonologiya, terapiya), t.ü.f.d - 1.0 (müsabiqə)
Aparıcı elmi işçi (pulmonologiya, terapiya), t.ü.f.d. - 2.0 (müsabiqə)

*Elmi döş qəfəsi cərrahiyyəsi:*
Aparıcı elmi işçi (ümumi cərrahiyyə), t.ü.f.d. - 2.0 (müsabiqə)
Elmi işçi (ümumi cərrahiyyə) - 2.0 (müsabiqə)

*Elmi laboratoriya:*
Elmi işçi - 2.0 (müsabiqə)

***Ünvan: E.Süleyman küç., 2514***
***Telefon: 421-50-91***

### «Respublika Narkoloji Mərkəzi» PHŞ

Tibb bacısı (qardaşı) - 6.0

***Ünvan: Maştağa qəs., Şeyx Hüseyn küç. 71***
***Telefon: 558-75-16***

### Yevlax Rayon Gigiyena və Epidemiologiya Mərkəzi

Sanitar-feldşer - 1.0
Həkim-epidemioloqun köməkçisi - 5.0
Həkim-parazitoloqun köməkçisi - 1.0
Feldşer-laborant- 2.0

***Ünvan: Q.Quliyev küç., 6***
***Telefon: (02233) 6-33-97***

### «Respublika Psixiatriya Xəstəxanası» PHŞ

Tibb bacısı (qardaşı) - 10.0
Psixoloq - 1.0
Sosioloq - 2.0

***Ünvan: Maştağa qəs., Şeyx Hüseyn küç., 69/71***
***Telefon: 455-10-91***

### Su Nəqliyyatında Gigiyena və Epidemiologiya Mərkəzi

Həkim-epidemioloqun köməkçisi - 2.0
Feldşer-laborant - 2.0
Tibbi-statistik - 1.0

***Ünvan: Z.Xəlilov küç., 2***
***Telefon: 539-45-07***

### Ucar Rayon Gigiyena və Epidemiologiya Mərkəzi

Həkim-epidemioloqun köməkçisi - 1.0

***Ünvan: Oğuz küç., 100***
***Telefon: (02021) 3-25-91***

Baş redaktor:
N.MƏCİDOVA

Baş redaktorun müavini:
S.NƏBİYEVA

Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.

Təsisçi:
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.
Qeydiyyat nömrəsi: B92

Ünvan: Mirəsədulla Mirqasımov küç., 1. Səhiyyə Nazirliyi, 2-ci mərtəbə, 249-cu otaq

Tel./faks: (012) 596-06-61
E-mail: tibbqazeti@mail.ru

Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və «CBS polygraphic production» mətbəəsində çap olunmuşdur.
İndeks: 1065 Tiraj: 9350

## Başsağlığı

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Statistika və İnformatika İdarəsinin kollektivi öz səmimiyyəti, yüksək insani keyfiyyətləri və intellekt səviyyəsi ilə işçilərinin və dostlarının qəlbini fəth edən gözəl insan və dəyərli rəhbər
**ŞAHİN ALMAST OĞLU XASİYEVİN**
vaxtsız ölümündən həddsiz kədərləndiyini bildirir, əziz xatirəsini hörmətlə anır, bütün doğmalarına və sevənlərinə dərin hüznlə başsağlığı verir.

Zığ Sağlamlıq Mərkəzinin rəhbərliyi və əməkdaşları Səhiyyə Nazirliyinin Statistika və İnformatika İdarəsinin rəis müavini
**ŞAHİN XASİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir, ailəsinə dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**


ДОЛФИН
dalğası ilə rahat nəfəs al!
KRVİ və qrip zamanı rinit
Vazomotor rinit
Sinusitlər ( haymorit, frontit, etmoidit)
Adenoidit
Allergik rinit
Hipertrofik rinit
Atrofik rinit
Burun boşluğu və burunətrafı ciblərin əməliyyata hazırlığı və əməliyyatdan sonra reabilitasiyası
İtburnu - kapilyarları möhkəmləndirir, regenerasiya edici təsir göstərir
Biyan- Allergiya əleyhinə iltihabəleyhinə, virusəleyhinə və immunomodulyator təsir göstərir
Qalit- antiseptik təsir göstərir
Burun boşluğunun həcmli yuyulmasını təmin edir, virus, mikroblardan və selikdən tamamilə təmizləyir.
Əlavə komponentlərə görə iltihab və şişkinliyi aradan qaldırır.
İstifadəsi rahatdır. Burnu yuyarkən təzyiq tənzimlənə bilir, məhlulun temperaturu bədən temperaturuna uyğunlaşdırılır.
Gigiyenik seritifikat
Dolfin (Uşaqlar üçün) - Seriya№ AZ 031 RSK 13384
Dolfin (Böyüklər üçün) - Seriya№ AZ 031 RSK 13385
Dolfinlə burun yuyulmasına dair video məlumat


Santen
GECƏ VƏ GÜNDÜZ NƏMLƏNDİRMƏ
KATİONORM
Gözlərin nəmləndirilməsi üçün kationlu emulsiya
Gözyaşının hər üç qatının bərpasına kömək edir
Konservantsızdır
KONTAKT LİNZALARIN ÜZƏRİNƏ DAMCILATMAQ OLAR
Tibbi məmulatdır
GECƏ NƏMLƏNDİRMƏ
OFTAGEL
Uzun müddətli nəmləndirmə üçün, o cümlədən gecə saatlarında
Tərkibində yüksək konsentrasiyalı karbomer var 0.25%
Dərman preparatıdır
Qeydiyyat vəsiqəsi
DV №18-00657


Krewel Meuselbach
VALOKORDİN
Fenobarbital – 18.4 mq
Etilbromizovalerianat – 18.4 mq
Köməkçi maddələr: mayaotu yağı, nanə yağı, etil spirt, təmizlənmiş su
20 мл
ВАЛОКОРДИН®
Nə üçün Valokordin?
Sakitləşdirici, spazmolitik və yüngül yuxugətirici təsirə malikdir.
Mərkəzi sinir sisteminin həyəcanını azaldır.
Təbii yuxunun başlamasını asanlaşdırır.
İstifadəsinə göstərişlər :
Sinir mənşəlli ürək ağrıları
Yüksək sinir oyanıqlığı və psixosomatik pozulmalar
Narahatlıq və nevrozluq
Yuxunun pozulması və vegetativ oyanıqlıq
İstifadə qaydası və dozası : yeməkdən əvvəl, az miqdarda maye ilə qəbul edilir. Doza fərdi olaraq təyin edilir.
Yetkinlərə adətən gündə 3 dəfə 22-30 damcı təyin edilir.
Həkim təyinatı olmadıqda gündə 3 dəfə 15-20 damcı bir qədər maye ilə yemək vaxtı qəbul edilir.
Yuxusuzluq zamanı dozanı 30 damcıya qədər artırmaq mümkündür.
Qeydiyyat vəsiqəsi
DV 22-01245


Santen
LEKROLIN®
Natrium kromoqlikat 40 mq
Allergik konyuktivitdən müdafiə!
ЛЕКРОЛИН®
İstifadəsinə göstərişlər:
Allergik konyuktivit
Allergik keratit
Keratokonyuktivit
Gözün selikli qişasının allergik reaksiyaları ələqədar qıcıqlanması (ətraf mühit, kosmetik vasitələr, bitki tozcuqları və s.)
Faydaları:
Allergik reaksiyanın həm erkən, həm də gec mərhələlərini inhibə edir
Histaminin sərbəst buraxılmasının qarşısını alır
İltihabı aradan qaldırır
Qızartı və qaşıntını azaldır
Tövsiyə olunan doza :
Böyüklərə və 4+ uşaqlara – hər konyuktival kisəciyə sutkada 2 dəfə 1-2 damcı istifadə edilir.
4 yaşa qədər uşaqlar – yalnız həkimin məsləhəti ilə.
Flakon açılandan sonra 28 gün ərzində istifadə edilir.
Kontak linzaları 15 daq. keçdikdən sonra istifadə etmək olar.



Solvitale
Ferrous
1 kapsul x 1 dəfə
yeməkdən əvvəl
Solvitale
Ferrous
YENİ
FORMULDA
TƏKMİLLƏŞDİRİLMİŞ
DƏMİR
HB Co LTD
SOLEPHARM
PHARMACEUTICALS




Solvitale Prenatal care
Solvitale
Prenatal
care
Axşam
kapsulu
Səhər
kapsulu
Yeni formul
Hamilələr üçün
ağıllı vitamin
və minerallar
HB Co LTD
SOLEPHARM
PHARMACEUTICALS




AVROMED
Mocom M10
Stomatoloji qurğu
Mocom
firması istehsalı olan
müxtəlif konfiqurasiyalı
stomatoloji qurğular
Mocom Firması avadanlıqlarının
Respublikamızda yeganə
distribyutoru Avromed Dentaldır
@avromed_company
@avromedcompany
avromed.az
info@avromed.az